

■ Əbülfəz Şahtaxtlı

## LOĞMANIM SƏN OL

Bir vaxt güldən tutdum dəstə,
Dedim bu qəlbimi istə,
Eyləmisən məni xəstə
Həkimim, dərmanım sən ol!

İndi naçardan-naçaram,
Gəl desən qanad açaram,
Sağalmaz dərdə düçaram
Gəlginən, loğmanım sən ol!

Söylə mənə ürək sirrin,
Qəlbimdə yaralar dərin,
Sevəmmərəm başqa birin
Nə olar, duyanım sən ol!

Sənsiz neylirəm canımı,
Qurban verdim ad-sanımı,
İstəyirsən tök qanımı
Qətlimə fərmanım sən ol!

## SALAM

Salam Allah salamı,
Almayan bəndə deyil.
Salam allah kəlamı,
Almayan sənlə deyil.

Salam bir mehribanlıq,
Salam yaxınlıq demək.
Salam bir din-imanlıq,
Ona səcdəyə getmək.

Mən yazmışam çözülsün,
Salam almayan alsın.
Hər kəs payın götürsün,
Ömrü salamla qalsın.

Əbülfəz, salamın ver,
Almayan qoy almasın.
Pulla salam alanlar,
Qoy yaxının olmasın.

## YARADANIN SİRRİDİ BU

Tale yazıdır, pozulmaz,
Yuxu deyil ki, yozulmaz,
Heç bir qanunla çözülməz.
Yaradanın sirridi bu.

Səni sevən varsa biri,
Yəqin düşüb sənə meyli,
Açıb ağartma bu sirri
Yaradanın sirridi bu.

Hər kəsə sevgi verilir,
Sevgi meyvədir, dərilir.
Eşq üçün hər kəs əyilir
Yaradanın sirridi bu.

Əbülfəz, sən xırdaladın,
Sözü-sözdən araladın,
Dostu oldu dostun, yadın
Yaradanın sirridi bu.

## ANAM DÜNYADAN KÖÇƏNDƏ

Gözlərini əbədi həyata yumdu anam,
Söndü o an Günəşim, Qaraldı mənim dünyam,
Tutuldu nitqim mənim, elə bildim ki, lalam
Ümid yerim, dayağım, çırağımdın, Ay Ana!

Hamı ağlasa belə eşitmirəm, mən karam,
Dünyadan köçməyinə heç cürə inanmıram,
Axtarıb görməyəndə, gördüm ki, anasızam
Ümid yerim, dayağım, çırağımdın, Ay Ana!

Bir nöqtədə gözlərim, xəyallara dalmışam,
Nitqim tutulub mənim, sikutlarda qalmışam,
Eşitcək bu xəbəri mən necə qocalmışam
Ümid yerim, dayağım, çırağımdın, Ay Ana!

Ağlayıb qollarını boynuma saldı xalam,
Hönkürüb sözlərini söylədi aram-aram,
Dedi getmə dünyadan, yetim qalacaq balan
Ümid yerim, dayağım, çırağımdın, Ay Ana!

Kədər boğdu məni də, istədim ki, bağıram,
Qışqırıb insanları köməyimə çağıram,
Kömək edə bilmədim, bəc mən necə oğulam?
Ümid yerim, dayağım, çırağımdın, Ay Ana!

Doğrudanmı bir daha gəlməyəcəkdir Anam?
Doğrudanmı bizləri ayrı tutacaq dövran?
Əbülfəzi sıxacaq, həm də üzəcək hicran
Ümid yerim, dayağım, çırağımdın, Ay Ana!